UOT 338.439

*Elnurə Bünyat qızı MƏMMƏDOVA*
*iqtisad üzrə fəlsəfə doktoru*
*Azərbaycan Kooperasiya Universitetinin*
*“Maliyyə və bank işi” kafedrasının dosenti,*
*E-mail:mammadova-e@list.ru*

*Bulud Cahangir oğlu SADIQOV*
*iqtisad üzrə fəlsəfə doktoru*
*Azərbaycan Kooperasiya Universitetinin*
*“Maliyyə və bank işi” kafedrasının dosenti,*
*E-mail: bulud.sadiqov@mail.ru*

# AZƏRBAYCANDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ MEXANİZMLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi:** Respublikada əhalinin ərzaqla təminat səviyyəsinin mövcud vəziyyətinin hərtərəfli tədqiqi, ərzaq təhlükəsizliyində olan problemlərin qiymətləndirilməsi və onun həlli üçün təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın metodologiyası:** Tədqiqatda analiz, sintaktik təhlil, anket sorğusu, ümumiləşdirmə və s. metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti:** Məqalədə irəli sürülən təklif və nəticələr Azərbaycanda ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsində, innovasiya iqtisadiyyatının daha da inkişaf etdirilməsində istifadə edilə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Tədqiqat zamanı beynəlxalq təcrübə nəzərə alınmaqla daxili ərzaq ehtiyatlarının inkişaf yolları müəyyənləşdirilmişdir. Əhaliyə etibarlı qida təchizatı səviyyəsinin yüksəldilməsi imkanları qiymətləndirilmişdir.

**Tədqiqatın nəticələri:** Ərzaq təhlükəsizliyi respublikanın iqtisadi siyasətinin vacib yollarından biridir. Nəticədə ölkənin qida sektorundakı mövcud problemlər həll oluna bilər.

***Açar sözlər: ərzaq bazarı, ərzaq istehsalı, ərzaq idxalı, ərzaq təhlükəsizliyi, investisiya qoyuluşları.***

## *Giriş*

Davamlı iqtisadi inkişaf şəraitində respublikanın ərzaq təhlükəsizliyinin təmin olunması əsas məsələlərdəndir. Dünyada beynəlxalq iqtisadiyyatın qloballaşdığı müasir dövrdə baş verən iqtisadi hadisələr zəminində respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunması daima aktual məsələdir. Bu problemin həlli məqsədilə ölkədə bir sıra iqtisadi proqramlar reallaşdırılmaqdadır. Bunlardan ən əsası 2016-cı il 06 dekabr tarixdə “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” qəbul edilmişdir.Bu Strateji Yol Xəritəsi ərzaq təhlükəsizliyinin təminində xüsusi əhəmiyyət kəsb edən bir iqtisadi sənəddir [1]. Bu sənəddə respublikada iqtisadiyyatın on bir sektoru əhatələnmişdir. 12 Strateji Yol Xəritəsi icraata qəbul olunmuşdur. Qeyd edilən yol xəritəsinin hər birində milli iqtisadiyyatın inkişaf prioritetləri əhatələnmişdir. Bu dövlət proqramında respublika üzrə bütövlükdə ərzaq təhlükəsizliyinin tamamilə yerli daxili imkanlar hesabına təmininə əsas verilmişdir [1].

**Müasir dövrdə aqrar sektor hər bir ölkənin ərzaq təhlükəsizliyinin başlıca təminatçısı kimi.** Müasir dövrdə dünya iqtisadiyyatında aqrar sektor strateji əhəmiyyət daşıyır. Çünki aqrar sektor hər bir ölkənin ərzaq təhlükəsizliyinin başlıca təminatçısıdır. Bir tərəfdən də dünya əhalisi sürətlə artır. Həm də uzun müddət torpaqlardan səmərəsiz istifadə edildiyi üçün məhsuldarlıq

azalıb. Digər tərəfdən isə, dünyada su qıtlığı problemi yaşanır. Mütəxəssislər hesab edirlər ki, 2030-cu ildən yaranacaq su qıtlığı 2050-ci ildə pik səviyyəyə çatacaq. Sözsüz ki, belə bir vəziyyət dünyada əhalinin ərzaqla təminatında ciddi problemlər yaradacaq. Bu təhlükəni aradan qaldırmaq üçün hər bir ölkə aqrar sahənin inkişafına diqqəti artırmalıdır. Azərbaycan da bu sahədə istisna deyil [2, s.13].

Ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmini və ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə dövlət tənzimlənmə tədbirlərinin reallaşdırılması bütövlükdə respublika iqtisadiyyatının səmərəliliyinin təmininin aktual və əsas məsələlərindəndir. Azərbaycan Respublikasında əhalinin ərzaq təminatının keyfiyyətcə yaxşılaşdırılması ön plana çıxmışdır. Bu məsələ hökumətin yerinə yetirəcəyi ən əsas prioritet sosial-iqtisadi məsələlərdəndir. Ərzaq problemi nəinki respublikamızda ümumiyyətlə qlobal bir problem olmaqla dünya ölkələri qaşısında prioritet vəzifədir. Ərzaq probleminin həlli respublika əhalisinin maddi vəziyyətini yaxşılaşdıra bilir. Ərzaqların keyfiyyətinin yüksəldilməsi əhalinin həm də sağlamlığını təmin edir. İndi Azərbaycanda hökumətin reallaşdırdığı iqtisadi siyasətin başlıca istiqaməti əhalimizin ərzaqla təminidir. Bu iqtisadi siyasətin əsas istiqaməti həm iqtisadi, həm sosial, həm demoqrafik və ekoloji amillərə əsaslanır. Şəhər və kənd əhalisinin qida məhsulları ilə fasiləsiz olaraq təmin olunması ərzaq təhlükəsizliyi probleminin həll olunması deməkdir. Bu problemin kompleks həlli dövlətin səmərəli sosial-iqtisadi uğuru kimi qiymətləndirilə bilər [3].

Ərzaq təhlükəsizliyinin hərtərəfli təmini məqsədilə dövlətin reallaşdırdığı tənzimlənmə tədbirlərinin istiqamətləri və hədəfləri əsaslandırılmalıdır. Ölkədə ərzaq təhlükəsizliyinin tam təmini əsas iqtisadi təhlükəsizliyin də problemlərinin həlli deməkdir. Qeyd etmək lazımdır ki,ölkələrin əhalisinin ərzaqla təmini məsələsi bazar iqtisadiyyatının tam formalaşdığı bütün vaxtlarda öz aktuallığını qorumuşdur. Ərzaqla təchizat problemi daima qlobal bir problem olaraq qalmaqdadır. Hal-hazırda da ərzaqla təchizat problemi bütün ölkələrdə mövcuddur. Bu baxımdan dünyada mövcud olan ərzaq qıtlığı bütün beynəlxalq təşkilatların diqqət mərkəzindədir. Dünyada olan bütün dövlətlərin hakimiyyət orqanlarının ciddi narahatlığı vardır. Hər bir dövlətin əhalinin ərzaqla təmin olunmasında ciddi problemləri mövcuddur. Bu baxımdan dövlət tənzimlənməsinə həmişə ehtiyac vardır. Ölkə əhalisinin ərzaqla həm tamlıqla,həm də keyfiyyəti yüksək qida məhsulları ilə təminat səviyyəsinin olması dövlətlər və hökumətlər qarşısında əsas vəzifədir. Lakin təəssüflər olsun ki, dünyada qida çatışmamazlığı get-gedə daha qabarıq formada özünü büruzə verir. Respublikamızda da qida məhsulları ilə təmin olunmanın vəziyyətinin tam araşdırılması zərurəti vardır. Respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunması üzrə inkişaf perspektivləri müəyyənləşdirilmişdir. Ərzaq təhlükəsizliyinin təmini məqsədlərinə nail olmaqdan ötrü ölkənin ərzaq təhlükəsizliyi probleminin nəzəri əsaslarının tədqiqi; dövlətin ərzaq təhlükəsizliyinə təsir edən amillərin müəyyən edilməsi; ölkə əhalisinin ərzaq sektorunda qida ilə özünütəminetmənin təhlili; dövlətin daxili ərzaq bazarının xarici ərzaq bazarlarından asılılıq səviyyəsinin müəyyən edilməsi; dövlətin əhalinin ərzaq təhlükəsizliyinə aqrar siyasətlə təsir etməsinin qiymətləndirilməsi; ölkənin ərzaq təhlükəsizliyi probleminin dövlət tənzimlənməsinin yollarının müəyyənləşdirilməsi kimi istiqamətlər müəyyən edilmişdir.

Ərzaq təhlükəsizliyi probleminin tədqiqinin nəzəri əsasını yeni iqtisadi konsepsiyalar, ərzaqla təminat, əhalinin büdcə gəlirləri, istehsalçıların təklif etdiyi qida əmtəələrinin tədavülü, ölkədə aqrar iqtisadiyyatın inkişaf səviyyəsi və digər elmi və praktiki tədqiqatlar, ərzaq təhlükəsizliyinin təmini ilə bağlı AR Prezidentinin fərman və sərəncamları, respublikada qəbul edilmiş olan qanun və digər normativ-hüquqi aktlar təşkil edir. Ərzaq təhlükəsizliyi probleminin tədqiqatında isə bir çox fərqli metodlardan istifadə olunmuşdur ki, bunlara da misal olaraq analiz, statistik təhlil, anket sorğusu, ümumiləşdirmə və s. metodları göstərmək olar.

İqtisadiyyatın bütün sahələrində informatika elminin son nailiyyətlərindən istifadə olunur. İnformatikanın iqtisadiyyata geniş formada tətbiqi rəqəmsal iqtisadiyyatı yaratmışdır. İqtisadiyyatın rəqəmsallaşması iqtisadiyyatın sahələrinin sürətli inkişafını təmin etmişdir. Respublika iqtisadiyyatının qida sahələrinə də informasiya texnologiyaları geniş tətbiq olunmuş və getdikcə də bu pro-

ses təkmilləşdirilir. Rəqəmsal iqtisadiyyatın qida sənayesinə tətbiqi yeni mərhələdir. Rəqəmsal iqtisadiyyat kənd təsərrüfatı iqtisadiyyatının sərhədləri kimi müxtəlif inkişaf mərhələlərini keçmişdir. Hal-hazırkı dövrdə yüksək texnoloji inqilabın son nəticəsi kimi inkişaf etmiş dövlətlərdə rəqəmsal keçid mərkəzləri formalaşdırılmışdır. Qida sənayesində də rəqəmsal robotlardan istifadə olunur. İqtisadiyyatın bu sahəsinin layihələndirmə işlərində də virtual mühit formalaşdırılmışdır. Ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə rəqəmsal qida iqtisadiyyatında sürətli və yeni prototip sistemləri formalaşdırılmışdır. Texnoloji inqilab, dördüncü sənaye inqilabı üzrə yenilik “rəqəmsal” adlandırılaraq Davos Forumunda 2016-cı ildə iqtisadçı alim Şvabın məruzəsində bildirilmişdir. Məlumdur ki, 4-cü sənaye inqilabının seçilməsinin əsaslandırılmış səbəbləri vardır. Bu inkişaf birincisi sosial-iqtisadi sferada yaranmış dəyişiklikləri, ikincisi onun mövcud həcmi, üçüncüsü isə sonda nəticələrin sistem xüsusiyyətləri kimi şərh olunur. Texnoloji inqilab həm də yaranmaqda olan rəqəmsal iqtisadiyyatın əhatə dairəsini artırdı. “Rəqəmsal iqtisadiyyat” terminini 1995-ci ildə Nikolas Neqroponte işlətmişdir.

Azərbaycanda uğurla həyata keçirilən iqtisadi islahatlar iqtisadiyyatda nailiyyətlərin əldə olunması ilə nəticələnmişdir. İqtisadiyyatın difersifikasiya siyasəti birbaşa neft sektorundan asılılığı aradan qaldırmışdır. Ölkənin maliyyə bazarında müsbət nəticələr əldə edilmişdir. Respublikanın regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün dövlət proqramları qəbul edilmişdir. Bu proqramlar uğurla yerinə yetirilir. Nəticədə ölkə əhalisinin sosial problemləri aradan qaldırılmış, onların maddi vəziyyəti get-gedə daha da yaxşılaşmışdır.

Ölkənin ərzaq təhlükəsizliyi istiqamətində yeni-yeni tədbirlər kompleksi reallaşdırılmaqdadır. Azərbaycan dövlət siyasətinin başlıca istiqamətlərindən olan qida təhlükəsizliyi sahəsində islahatların davam etdirilməsi ümumilikdə iqtisadiyyatda nailiyyətlər kimi qiymətləndirilə bilər. Mövcud beynəlxalq dünya iqtisadiyyatında baş verən yeniliklərdən ən əsası yeni müasir informasiya cəmiyyətinin formalaşdırılmasıdır. Rəqəmsal iqtisadiyyatın formalaşmasının əsas xarakterik xüsusiyyətlərindən biri də əhalinin qida ilə təminatının inkişafına müsbət təsiri ilə əlaqəlidir. Qida və ərzaq təhlükəsizliyi sahəsində rəqəmsal bir mühitin formalaşdırılması ilk növbədə müvafiq dövlət orqanları, ölkə vətəndaşları və yerli biznes qurumları arasında əsaslı və məqsədyönlü səmərəli iqtisadi münasibətlərin yaradılması ilə əlaqədardır. Ölkənin ərzaq və qida təhlükəsizliyi hər bir ölkənin rəqəmsal iqtisadi sisteminin əsasıdır. Əhalinin qidaya olan tələbatının ödənilməsi mövcud yaşayış səviyyəsini xarakterizə edir. Bu onun başlıca göstəricisidir. Qida təhlükəsizliyini təmin etmək üçün yerli ərzaq məhsullarının isehsalı çoxaldılmadır. Ərzaq təhlükəsizliyi əhalinin ərzaqla orta və yüksək səviyyədə təminatıdır. Əhalinin sağlam bir yaşayış şəraitinin təminatı üçün bu vacibdir. Qida və ərzaq təhlükəsizliyi problem olaraq hər bir ölkədə qalmaqdadır. Bu məsələnin əsaslı şəkildə həlli yoxsulluq səviyyəsini azaldır. Ərzaq məhsulları təchizatının çoxaldılması insan artımı ilə bağlıdır. Bu məqsədlə kənd təsərrüfatında daima yeni mütərəqqi texnologiyalardan istifadə olunmalıdır. Bununla da ərzaq təhlükəsizliyini təmin etmək olar.

Ölkənin ərzaq təhlükəsizliyinə həm daxili bazarda bu məhsulların olması, həm də qida məhsullarının ölkəyə idxalı üçün maliyyə resurslarının formalaşması imkanları kimi amillər təsir edir.

Əhalinin qida məhsullarına olan tələbatının səksən faizinin yerli istehsal ilə təmin edilməsi qida təhlükəsizliyinin qiymətləndirilməsində əsas meyardır.Bu belə qəbul olunmuşdur.

Beynəlxalq təşkilatlar ərzaq təhlükəsizliyinin təmini ilə əlaqədar olaraq bu məhsullara olan tələbatın yetmiş faizinin daxili istehsal hesabına,otuz faizinin başqa ölkədən idxal hesabına təminini müsbət sayır. BMT-nin Kənd təsərrüfatı və ərzaq təşkilatı (FAO) da bu cür qiymətləndirməyə üstünlük verir [6].

Hər bir ölkədə əhalinin ərzaq təhlükəsizliyi üzrə qiymətləndirmə səviyyəsinin ölçü göstəriciləri sisteminə həmin ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı və onun səmərəliliyi göstəriciləri sistemi aid edilir.

Ölkə daxilində ərzaq məhsullarının istehsalı həcmi bütün əhalisinin qiymətləndirmə dövrü üzrə tələbatlarını tamamilə ödəməlidir. Bir çox ölkələrdə müəyyən məhsullar üzrə alternativ ehtiyat fondları da yaradılır. Ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmini baxımından bu formalaşdırıl-

mış olan fondların müstəsna əhəmiyyəti vardır. Bu ehtiyat fondları müstəsna hallarda,məsələn təbii fəlakətlərin daxili istehsala neqativ təsirinin nəticəsini qaradan qaldırmağa imkan verir və əhalinin ərzaq təminatında fasiləsizliyi mümkün edir.

**BMT-nin Azərbaycan Respublikasına dair hesabatları.** BMT Azərbaycan Respublikasına dair bir çox hesabatlar tərtib edir. Bunlardan biri də insan inkişafına dair hesabatdır. Bu hesabatda göstərilmişdir ki, işsizlik, əhalinin aşağı yaşayış səviyyəsi,ölkədə sosial təbəqələşmənin kəskin olması, kölgə iqtisadiyyatının payının çox olması, iqtisadiyyatın xarici kapitaldan asılılığının çox olması, müəyyən sahələr üzrə peşəkar əmək resurslarının başqa ölkələrə axını ərzaq təhlükəsizliyini müəyyən edən amillərdəndir [6].

Ölkə əhalisinin qida təhlükəsizliyinin təmininin xüsusiyyətlərindən biri də qiymətdir. Dünya bazar qiymətləri beynəlxalq tədavül sferasında çıxarılan əmtəələrin daxili istehsal xərclərinə uyğun olaraq formalaşır. Dünya bazarında da qida məhsullarının qiymət səviyyəsinə tələb və təklif qiymətləri təsir edir. Dünya bazarında inkişaf etmiş dövlətlərin inhisarçılıq mövqeləri get-gedə güclənir.

Qloballaşma şəraitində formalaşan daxili qiymətlər dünya bazarında iştirakçı dövlətlərin iqtisadi inkişafından asılı olaraq bir-birindən fərqləndirilməlidir. Ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasında və respublikanın daxilində ərzaq təhlükəsizliyinin tamamilə və tamlıqla təminində əsas vəzifə kimi iki məsələnin böyük rolu vardır. Bunlardan biri ölkədaxili bazarın yerli istehsal məhsulları ilə təminidir. Ölkədən digər bazarlara ixrac olunan yerli istehsal əmtəələrinin çeşidinin çoxaldılması və onların xarici bazarlarda rəqabətədözümlülüyünün çoxaldılmasıdır. Bəzən istehsal prosesinə beynəlxalq maliyyə təşkilatları investor kimi cəlb olunur. Birləşmiş Millətlər Təşkilatının “əkiz qülləsi”olan Dünya Bankı, Beynəlxalq Valyuta Fondu investisiya qoyuluşlarında öz maraqlarının təmin olunması üzrə istiqamətlənirlər. Bunun edilməsi məqsədilə verilən kreditlərdən bir iqtisadi alət kimi istifadə edilir. Bu səbəbdən də ərzaq və qida təhlükəsizliyinin təminində xarici investorlarla yanaşı, yerli investorların da cəlb olunmasına tələbat yaranır. Ölkədaxili investisiya potensialından tam və düzgün istifadə məqsədi ilə xarici innovativ texnologiyaların son nailiyyətlərinin tətbiqi məsələlərinə üstünlük verilməlidir [6].

## *Nəticə*

Məqalə yazılan zaman aparılmış araşdırmalardan sonra formalaşan qənaətləri ümumiləşdirərək aşağıdakı nəticələri qeyd etmək istərdik.

- Azərbaycanda ərzaq bazarının hazırkı durumu onun tənzimlənməsinin hökumət tərəfindən həyata keçirilməsinə əsas verir.
- Hökumət bu tənzimləmələri icraya başlamazdan əvvəl bu sahə üzrə nəzəri-metodoloji məsələləri və hüquqi prosedurları hazırlamaqla ön hazırlıq işlərini müvafiq araşdırmaçı və alimlər korpusu ilə müzakirə etməlidir, ictimai rəydə doğru anlaşılması təmin edilməli, yeniliklərin daha mədəni və səmərəli tənzimləmə olacağını cəmiyyətə aşılamalıdır.
- Ərzaq bazarının müasir durumu elmi-nəzəri araşdırmalarla yanaşı empirik tədqiqata da məruz qoyulmalı, müddətli və səmərəli formada hazırlanan modellər əsasında monitorinq edilməlidir.
- Bu tədqiqatların nəticələri ərzaq bazarını bütün istiqamətlər və bütün seqmentlər üzrə tənzimləməyə imkan verən konsepsiya halına salınmalıdır.
- Ərzaq bazarının tənzimlənməsində prioritet məsələlər kimi iki elementdən ibarət bir məsələni diqqətdə saxlamaq lazımdır. Bu məsələnin tərkibindəki iki elementdən birincisi daxili tələbatın ödənilməsi üçün yetərli olan miqdarda və çeşiddə ərzaq məhsullarının, əmtəələrin istehsalı və anbarlaşdırılmasıdır. İkincisi isə ərzaq istehsalının özünümaliyyələşdirmə qabiliyyətinin güclü və davamlı olması üçün əlavə həcmlərin daha ucuz maya dəyəri ilə istehsalı və xarici dünya bazarlarında daha baha qiymətə satılmasını təmin etmək üçün dövlət və hökumət dəstəyinin həyata keçirilməsi ilə əlaqədar tənzimləmə tədbirləridir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi. 2016.
2. Ataşov, B.X. “ Aqrar sahədə struktur və səmərəlilik problemi”. Bakı, 2017, “Kooperasiya” nəşriyyatı. 536 s.
3. Cabbarova, K.S. “Azərbaycan Respublikasında ərzaq mallarına tələbatın ödənilməsi problemləri”. Dissertasiya. Bakı, 2012.
4. Hüseyn, R.Z. “Aqrar sahədə rəqabətqabiliyyətli məhsul istehsalı: qloballaşmanın çağırışları və inkişaf imkanları” Bakı, 2018, “Elm”408 s.
5. İbrahimov, İ.H. “Aqrar sahənin iqtisadiyyatı”. (Monoqrafiya). Bakı, 2016, 655 s.
6. https://azerbaijan.un.org/az/
7. http://www.agrolizing.gov.az
8. www.statistika.az
9. https://donortracker.org/germany/agriculture
10. www.agro.gov.az


## *İXTİSARLAR VƏ İŞARƏLƏR*

| | |
|---|---|
| **AQTA** | Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **FAO** | Food anda Agriculture Organization |
| **GMO** | Geni Modifikasiya Olunan |
| **ÜST** | Ümumdünya Səhiyyə Təşkilatı |


***Эльнура Буньят кызы Мамедова,***
***доцент, доктор философии по экономике***
***Азербайджанский Университет Кооперации***
***Преподаватель кафедры “Финансы и банковское дело”***
***E-mail:mammadova-e@list.ru***

***Булут Джахангир оглыСадыгов***
***доцент, доктор философии по экономике***
***Азербайджанский Университет Кооперации***
***Преподаватель кафедры “Финансы и банковское дело”***
***Электронная почта: bulud.sadiqov@mail.ru***


## Механизмы оценки и совершенствования государственного регулирования продовольственной безопасности в Азербайджане


### *Резюме*

**Цель исследования:** Комплексное изучение современного состояния продовольственной безопасности страны, оценка проблем продовольственной безопасности и разработка предложений и рекомендаций по ее решению.

**Методология исследования:** Анализ, синтаксический анализ, анкетирование, обобщение и т.д. в исследовании. использовались методы.

**Значимость применения исследования:** Выдвинутые в статье предложения и результаты могут быть использованы в государственном регулировании продовольственной безопасности в Азербайджане, в дальнейшем развитии инновационной экономики.

**Оригинальность и научная новизна исследования:** В ходе исследования определены пути развития отечественных продовольственных ресурсов с учетом зарубежного опыта.

Оценены возможности повышения уровня надежного продовольственного снабжения населения.

**Результаты исследования:** Продовольственная безопасность является одним из важных направлений экономической политики республики. В результате могут быть решены существующие проблемы в продовольственном секторе страны.

***Ключевые слова: продовольственный рынок, производство продуктов питания, импорт продуктов питания, продовольственная безопасность, инвестиции.***

***Elnura Bunyat Mammadova***
***Associate Professor, PhD in economics***
***Azerbaijan Cooperation University***
***Teacher of the Department “Finance and banking”***
***E-mail:mammadova-e@list.ru***

***Bulud Cahangir Sadigov***
***Associate Professor, PhD in economics***
***Azerbaijan Cooperation University***
***Teacher of the Department "finance and banking",***
***E-mail: bulud.sadiqov@mail.ru***

## Mechanisms for assesing and improving state regulation of food security in Azerbaijan

***Summary***

**The aim of the study:** The purpose of the study is to comprehensively study the current state of food security in the country, to determine the direction of development of the food security system on a scientific basis, to identify and evaluate the problems of state regulation and to develop proposals and recommendations.

**Research methodology:** Several research methods were used during the research process. These methods include analysis, statistical analysis, questionnaire, generalization, etc. methods apply.

**Significance of the research:** The main information base of the research is the data of the Ministry of Agriculture of the Republic of Azerbaijan, the State Statistics Committee, research work of local and foreign scientists, as well as Internet resources.

**Originality and scientific novelty of the research:** The study identified prospects for the development of domestic food resources, taking into account international experience, and assessed the possibility of increasing the level of reliable food supply to the population.

**Results of the research:** Given that food security is one of the important directions of the country's economic policy. As a result, we can say that if our proposals on the above nuances are taken into account, it will contribute to solving the existing problems in the food sector of the country.

***Key words: Food market, food production, food imports, food security, investments.***